AZƏRBAYCAN RESPUBLIKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN
(OMBUDSMANIN) APARATI

# İNSAN HÜQUQLARI ÜMUMİ BƏYANNAMƏSİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

**Bakı - 2003**

Redaktor: Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova

Tərtib edən: Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili (Ombudsman) Aparatının Hüquqi maarifləndirmə şöbəsinin baş məsləhətçisi Zaur Əliyev

Kitabda İnsan Hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası arasında paralellər aparılaraq, Bəyannamənin müvafiq maddələri ilə Konstitusiyanın uyğun maddələri paralel şəkildə verilmişdir. Kitabdan insan hüquqlarının müdafiəsi ilə məşğul olan təsisatlar, praktik işçilər, müəllim və tələbələr, həmçinin insan hüquqları ilə maraqlanan digər şəxslər istifadə edə bilərlər.

© Azərbaycan Respublikasının
İnsan Hüquqları Üzrə
Müvəkkilinin (Ombudsmanın)
Aparatı

## Ön Söz

1948-ci ildə BMT Baş Assambleyasının 217 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və Birləşmiş Millətlər Təşkilatının nailiyyətlərindən biri kimi dəyərləndirilən İnsan Hüquqları Ümumi Bəyannaməsi ilk dəfə olaraq əsas insan hüquqları toplusunu özündə əks etdirmişdir. Bəyannamənin qəbul edilməsindən 50 ildən artıq müddətin keçməsinə baxmayaraq, o indi də öz əhəmiyyətini saxlayır. Bu sənəddə həm mülki və siyasi, həm də sosial, iqtisadi və mədəni hüquqlar təsbit olunmuşdur. Bəyannamənin əksər müddəaları ümumi beynəlxalq adət hüququnun bir hissəsinə çevrilmişdir. Dünyanın əksər ölkələrinin konstitusiyaları birbaşa olaraq bu sənədə istinad etməklə onun bir çox müddəalarını özündə ehtiva edir. Ümumi Bəyannamə müasir dövrümüzdə hüququn əsas mənbələrindən biri hesab olunmaqla insan hüquqlarına dair müxtəlif qanun və sənədlərin, ayrı-ayrı konstitusiya müddəalarının hazırlanmasında əksər ölkələr tərəfindən geniş istifadə olunur. Təsadüfi deyildir ki, 1948-ci ildən sonra qəbul olunmuş əksər konstitusiyalarda Bəyannamədə olan müddəaları özündə ehtiva edən müddəalar öz əksini tapmışdır. Bəyannamənin əsas müddəaları yeni müstəqil dövlətlərin konstitusiyalarında da öz əksini tapmışdır.

Keçən əsrin sonlarında öz müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin qarşısında duran mühüm vəzifələrdən biri də ümumi beynəlxalq hüquq norma və prinsiplərinə, o cümlədən əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinə uyğun olan Konstitusiyanın qəbul edilməsi idi. 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi - referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiyanın III fəsli bütövlüklə əsas insan hüquq və azadlıqlarına həsr edilmişdir. Deməк olar ki, İnsan Hüquqları Ümumi Bəyannaməsi və insan hüquqlarına dair digər beynəlxalq aktlarla müəyyən edilən əksər hüquq və azadlıqlar bu Konstitusiyada təsbit olunmuşdur.

Oxucalara təqdim olunan bu vəsait İnsan Hüquqları Ümumi Bəyannaməsinin əsas prinsiplərinin Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapması və bununla da Konstitusiyanın ümumi beynəlxalq hüquq normalarını özündə əks etdirməsini şəkildə göstərilməsinə xidmət edir. Kitabda Bəyannamənin maddələri ilə Konstitusiyanın müvafiq maddələri arasında paralellər aparılaraq, Bəyannamənin müvafiq maddəsi ilə yanaşı konstitusiyanın uyğun maddəsi və ya maddələri verilmişdir.

Kitabdan insan hüquqlarının müdafiəsi ilə məşğul olan təsisatlar, praktik işçilər, müəllim və tələbələr, həmçinin insan hüquqları ilə maraqlanan digər şəxslər istifadə edə bilərlər.

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

E.Süleymanova

# İNSAN HÜQÜQLARI ÜMUMİ BƏYANNAMƏSİ

BMT Baş Məclisinin 217 (III) saylı 10 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul və bəyan edilmişdir.

## PREAMBULA

Bəşər nəslinin bütün üzvlərinə məxsus olan ləyaqətin və onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu nəzərə alaraq;

insan hüquqlarına qarşı bəşəriyyətin vicdanını hiddətləndirən hörmətsizlik və həqarətin barbarlıq hərəkətlərinə gətirib çıxardığım, insanların söz və əqidə azadlığına malik olacağı, qorxu və ehtiyacdan azad olacağı bir dünya qurulmasının insanların yüksək amalı elan olunduğunu nəzərə alaraq;

insanın istibdad və zülm əleyhinə son mübarizə vasitəsi kimi üsyana əl atmağa məcbur olmaması üçün insan hüquqlarının qanunun gücü ilə təmin edilməsinin zəruriliyini nəzərə alaraq; xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq;

Birləşmiş Millətlərin xalqlarının Nizamnamədə insanın əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların bərabərliyinə inamlarını təsdiq etdiklərini və daha böyük azadlıqlar şəraitində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına yardım göstərməyi qərara aldıqlarını nəzərə alaraq;

üzv-dövlətlərin Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda insan hüquqlarına hamılıqla hörmət göstərilməsinə və onlara riayət olunmasına yardım etməyi öhdələrinə götürdüklərini nəzərə alaraq;

bu hüquq və azadlıqların xarakterinin hamılıqla dərk edilməsinin həmin öhdəliyin tam yerinə yetirilməsində böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq,

## BAŞ MƏCLİS

İnsan hüquqları haqqında bu Ümumi Bəyannamənin yetirilməsinə bütün xalqların və dövlətlərin çalışmalı olduğu bir vəzifə kimi elan edir ki, hər bir insan, cəmiyyətin hər bir orqanı bu Bəyannaməni daim nəzərdə tutaraq, maarif və təhsil yolu ilə həmin hüquq və azadlıqlara hörmət edilməsinə, mütərəqqi milli və beynəlxalq tədbirlər vasitəsilə onların istər Təşkilatın üzv dövlətlərinin, istərsə də onların yurisdiksiyasındakı ərazilərin xalqlar arasında səmərəli tanınmasının və həyata keçirilməsinin təmin olunmasına səy göstərsinlər.

### Maddə 1

Bütün insanlar azad, hüquq və ləyaqətlərinə görə bərabər doğulurlar. Onlar idrak və vicdana malikdirlər və bir-biri ilə qardaşlıq ruhunda davranmalıdırlar.

### Maddə 2

İrqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülki, silki, yaxud başqa vəziyyətinə görə heç bir fərq qoyulmadan bütün insanlar bu Bəyannamədə elan edilmiş hüquqlara və azadlıqlara malik olmalıdırlar.

Bundan əlavə, insanın mənsub olduğu ölkənin, yaxud ərazinin siyasi, hüquqi, yaxud beynəlxalq statusuna görə, həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib-etməməsindən, yaxud suverenliyinin hər hansı məhdudluğundan asılı olmayaraq heç bir ayrı-seçkiliyə yol verilməməlidir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 24. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.
II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 25. Bərabərlik hüququ**

III. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

**Maddə 3**

Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 27. Yaşamaq hüququ**

I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 28. Azadlıq hüququ**

I. Hər kəsin azadlıq hüququ vardır.

II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

III. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır.

**Maddə 4**

Heç kəs köləlikdə, yaxud asılılıqda saxlanılmamalıdır; quldarlıq və qul alverinin bütün növləri qadağandır.

**Maddə 5**

Heç kəs işkəncəyə, qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamalıdır.

**Maddə 6**

Hər bir insan harada olursa-olsun onun hüquq subyektliyinin tanınması hüququna malikdir.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ**

I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.
II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.
III. Heç kəsə işkəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

**Maddə 7**

Bütün insanlar qanun qarşısında bərabərdir və heç bir fərq qoyulmadan qanun qarşısında eyni dərəcədə müdafiə olunmaq hüququna malikdir. Bütün insanların bu Bəyannaməni pozan hər cür ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə təhriklərdən eyni dərəcədə müdafiə olunmaq hüququ var.

**Maddə 8**

Hər bir insan onun konstitusiya, yaxud qanunla verilmiş əsas hüquqları pozulduğu hallarda həmin hüquqların səlahiyyətli milli məhkəmələr tərəfindən təsirli şəkildə bərpa olunması hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 28. Azadlıq hüququ**

I. Hər kəsin azadlıq hüququ vardır.

II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 62. Məhkəmə aidiyyatinin dəyişdirilməsinə yol verilməməsi**

Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 63. Təqsirsizlik prezumpsiyası**

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

V. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

**Maddə 12**

Heç kəsin şəxsi və ailə həyatına özbaşına mudaxilə oluna onun mənzil toxunulmazlığına, yazışma sirrinə, yaxud şərəfinə və adına özbaşına qəsd edilə bilməz. Hər bir insanın belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ var.

**Maddə 13**

1. Hər bir insan hər hansı dövlətin hüdudlarında sərbəst yerdəyişmək və özünə yaşayış yeri seçmək hüququna malikdir.
2. Hər bir insanın, öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 28. Azadlıq hüququ**

I. Hər kəsin azadlıq hüququ vardır.
II Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsə alma  və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 62. Məhkəmə aidiyyatinin dəyişdirilməsinə yol verilməməsi**

Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 63. Təqsirsizlik prezumpsiyası**

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.
II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.
III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.
IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.
V. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

**Maddə 12**

Heç kəsin şəxsi və ailə həyatına özbaşına müdaxilə oluna onun mənzil toxunulmazlığına, yazışma sirrinə, yaxud şərəfinə və adına özbaşına qəsd edilə bilməz. Hər bir insanın belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ var.

**Maddə 13**

1. Hər bir insan hər hansı dövlətin hüdudlarında sərbəst yerdəyişmək və özünə yaşayış yeri seçmək hüququna malikdir.
2. Hər bir insanın, öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 33. Mənzil toxunulmazlığı hüququ**

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 28. Azadlıq hüququ**

III. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.

**Maddə 14**

1. Hər bir insan digər ölkələrdə təqibdən sığmacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir.
2. Bu hüquq həqiqətən də qeyri-siyasi cinayət və ya Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd hərəkət törədilməsinə əsaslanan təqiblər zamanı tətbiq oluna bilməz.

**Maddə 15**

1. Hər bir insanın vətəndaşlıq hüququ var.
2. Heç kəs özbaşına olaraq vətəndaşlıqdan və vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz.

**Maddə 16**

1. Yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli, yaxud dini əlamətlərə görə heç bir məhdudiyyət qoyulmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikaha daxil olarkən, nikah müddətində və onun pozulması zamanı eyni hüquqlardan istifadə edirlər.
2. Nikah yalnız nikaha daxil olan hər iki tərəfin azad və tam razılığı ilə bağlana bilər.
3. Ailə cəmiyyətin təbii və başlıca özəyidir və cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 70. Siyasi sığınacaq hüququ**

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

II Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 53. Vətəndaşlıq hüququnun təminatı**

I. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.

II. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

III. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 34. Nikah hüququ**

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

**Maddə 17**

1. Hər bir insanın həm təkbaşına, həm də müştərək mülkiyyətə sahib olma hüququ vardır.
2. Heç kəs özbaşına olaraq mülkiyyətindən məhrum edilə bilməz.

**Maddə 18**

Hər bir insan fikir, vicdan və din azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və əqidəsini dəyişmək azadlığı və öz dininə və əqidəsinə təlim, ibadət, dini ayin və mərasimlər zamam təklikdə, və ya başqaları ilə birlikdə, aşkar, yaxud fərdi qaydada, təlimdə, ibadətdə, dini ayin və mərasimlərin icrasında etiqad etmək azadlığı daxildir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideyinlərini saxlamağa borcludurlar.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 29. Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 48. Vicdan azadlığı**

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmə, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

**Maddə 19**

Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyaları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir.

**Maddə 20**

1. Hər bir insanın azad şəkildə dinc yığıncaqlar keçirmək, assosiasiyalar yaratmaq hüququ var.
2. Heç kəs hər hansı assosiasiyaya daxil olmağa məcbur edilə bilməz.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 29. Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin

özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 48. Vicdan azadlığı**

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmə, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

**Maddə 19**

Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyaları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir.

**Maddə 20**

1. Hər bir insanın azad şəkildə dinc yığıncaqlar keçirmək, assosiasiyalar yaratmaq hüququ var.
2. Heç kəs hər hansı assosiasiyaya daxil olmağa məcbur edilə bilməz.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 58. Birləşmək hüququ**

I. Hər kəsin başqaları ilə birləşmək hüququ vardır.
II. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyi daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.
III. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 55. Dövlətin idarə olunmasında iştirak etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.
II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 56. Seçki hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

**Maddə 22**

Hər bir insanın, cəmiyyətin bir üzvü kimi, sosial təminat, milli səylər və beynəlxalq əməkdaşlıq əsasında, hər bir ölkənin strukturuna və ehtiyatlarına müvafiq olaraq, ləyaqətinin qorunması, şəxsiyyətinin azad inkişafı üçün zəruri olan iqtisadi, sosial və mədəni hüquqlarını heyata keçirmək hüququ vardır.

**Maddə 23**

1. Hər bir insan əmək, sərbəst şəkildə iş seçmək, ədalətli və əlverişli əmək şəraiti, işsizlikdən müdafiə hüququna malikdir.
2. Hər bir insanın heç bir ayrı-seçkilik qoyulmadan eyni əmək üçün bərabər haqq almaq hüququ var.
3. Hər bir işçi özünün və ailəsinin insana layiq yaşamasını təmin edən və lazım gəldikdə digər sosial təminat vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququna malikdir.
4. Hər bir insan öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq, yaxud həmkarlar ittifaqlarına daxil olmaq hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 38. Sosial təminat hüququ**

I. Hər kəsin sosial təminat hüququ vardır.

II. Yardıma möhtac olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur.

III. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstələyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

IV. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.

V. Dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 35. Əmək hüququ**

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

**Maddə 24**

Hər bir insanın, iş gününün ağlabatan şəkildə məhdudlaşdırılması daxil olmaqla, istirahət və asudə vaxt, vaxtaşırı ödənişli məzuniyyət hüququ vardır.

**Maddə 25**

1. Hər bir insan özünün və ailəsinin sağlamlığı və rifahı üçün qida, paltar, mənzil, tibbi və zəruri sosial xidmət daxil olmaqla, layiqli həyat səviyyəsinə nail olmaq hüququna, işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq, yaxud yaşayış vasitələrindən özündən asılı olmayan digər səbəblərdən məhrum olduğu hallarda təminat hüququna malikdir.

2. Analar və uşaqlar xüsusi himayədarlıq və yardm göstərilmək hüququna malikdir. Nikahdan və nikahdankənar doğulan bütün uşaqlar sosial müdafiədən eyni dərəcədə istifadə etməlidirlər.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 37. İstirahət hüququ**

I. Hər kəsin istirahət hüququ vardır.
II. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 38. Sosial təminat hüququ**

III. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 34. Nikah hüququ**

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

**Maddə 26**

1. Hər bir insanın təhsil hüququ vardır. Təhsil - ən azı ibtidai və ümumi təhsil - pulsuz olmalıdır. İbtidai təhsil icbari olmalıdır. Texniki təhsil və peşə təhsili hamıya, ali təhsil, hər kəsin qabiliyyəti əsasında, hamıya eyni dərəcədə müyəssər olmalıdır.
2. Təhsil insan şəxsiyyətinin tam inkişafına, insan hüquqlarına və əsas azadlıqlara ehtiramın artmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlüyə və dostluğa, Birləşmiş Millətlər Təşkilatının sülhü qorumaq sahəsindəki fəaliyyətinə yardım göstərməlidir.
3. Valideynlər öz azyaşlı uşaqları üçün təhsil növü seçməkdə üstünlük hüququna malikdirlər.

**Maddə 27**

1. Hər bir insan cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və ondan bəhrələnmək hüququna malikdir.
2. Hər bir insan müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərini müdafiə etmək hüququna malikdir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 42. Təhsil hüququ**

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.
II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.
III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.
IV. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.
V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 40. Mədəniyyət hüququ**

I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.
II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 30. Əqli mülkiyyət hüququ**

I. Hər kəsin əqli mülkiyyət hüququ vardır.
II. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

**Maddə 28**

Hər bir insan bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq nizam hüququna malikdir.

**Maddə 29**

1. Hər bir insan yalnız şəxsiyyətinin azad və tam inkişafının mümkün olduğu cəmiyyət qarşısında borcludur.
2. Hər bir insana öz hüquq və azadlıqlarını həyata keçirərkən yalnız qanunun istisna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımi şəkildə tanınmasını və onlara hörmət olunmasını təmir etmək və demokratik cəmiyyətdə əxlaq, ictimai asayış və ümumi rifahın ədalətli tələblərini yerinə yetirmək məqsədilə qoyduğu məhdudiyyətlər tətbiq edilməlidir.
3. Bu hüquq və azadlıqların həyata keçirilməsi heç bir vəchlə Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olmamalıdır.

**Maddə 30**

Bu Bəyannamədə heç nə hər hansı bir dövlətə, insan qrupuna, yaxud ayrı-ayrı şəxslərə, həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğv edilməsinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud hərəkətlər hüququ verilməsi kimi yozula bilməz.

**Azərbaycan Respublikasının Konstitusiyası**
**Maddə 72. Vətəndaşların vəzifələrinin əsası**

I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

Yığılmağa verilmişdir 10.01.2003. Çapa imzalanıb 07.03. 2003.
Ofset kağızı. Fiziki ç. v. 2,75. Format 60x90 1/16. Ofset çapı.
Tiraj 2000. Sifariş N15.

«Atra» mətbəəsində çap olunmuşdur.
Bakı şəhəri, S.Vurğun küçəsi, 110.

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ömbudsman)**
Ünvan:
Bakı-370000, Ü.Hacıbəyov küçəsi 40, Hökumət evi, II qapı.

**Əlavə məlumat üçün telefonlar:**
(99412) 982365, 937422

**faks: 988574**

**e-mail:**
ombudsman @ ombudsman. gov.az
apparat@ombudsman.gov.az
www.ombudsman. gov.az

BMT-nin İnkişaf Proqramının dəstəyi ilə çap olunub